# “Heydər Əliyevin media dərsləri”



**Nəsimi Rayon İcra Hakimiyyətinin “Xalq qəzeti” ilə birgə təşkil etdiyi “Heydər Əliyevin media dərsləri” mövzusunda konfransda müstəqil dövlətimizin banisinin demokratik cəmiyyətdə medianın rolu və vəzifələri ilə bağlı konseptual təlimi diqqət mərkəzində oldu, ulu öndərin milli jurnalistikamızın inkişafındakı xidmətləri qədirbilənliklə yad edildi.**

Yerli ictimaiyyət nümayəndələrinin və mərkəzi media təmsilçilərinin iştirak etdiyi məclisi giriş sözü ilə açan Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov bildirdi ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə milli mətbuatımızın, ölkə teleradiosunun peşəkarlıq baxımından yüksəlişi və maddi-texniki bazasının möhkəmləndirilməsi üçün əsaslı tədbirlər həyata keçirilib.

Konfransın davamında “Xalq qəzeti”nin baş redaktoru, Əməkdar jurnalist Əflatun Amaşov, “İki sahil” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, fəlsəfə doktoru Alqış Musayev və “Bakı xəbər” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Aydın Quliyev bildirdilər ki, ulu öndər Heydər Əliyev jurnalistikaya kifayət qədər açıq idi və azad, doğru sözün gücünü aydın dəyərləndirirdi. Ümummilli liderin böyük səyləri nəticəsində Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması sahəsində ardıcıl tədbirlər həyata keçirildi.

Qeyd edildi ki, ulu öndərin müstəsna səyləri ilə müstəqillik illərində kütləvi informasiya vasitələrinin təsis edilməsi və azad fəaliyyəti üçün ölkəmizdə zəruri qanunvericilik bazası yaradıldı. Mətbuata dövlət nəzarəti olan senzuranın aradan qaldırılmasından sonra beynəlxalq standartlara cavab verən, KİV-in təsis edilməsi və fəaliyyəti üçün qanunvericiliyin təkmilləşdirilməsi, optimal hüquqi mühitin formalaşdırılması istiqamətində zəruri olan sənədlər qəbul edildi. Beləliklə, demokratik cəmiyyətdə medianın yerini ən dəqiq və qeyri-adi bir həssaslıqla dəyərləndirən düşüncə ulu öndərimiz Heydər Əliyevə məxsusdur.

Konfransda çıxış edən natitiqlərin çıxışlarında belə bir mülahizə ortaqlıq təşkil etdi: Ulu öndərin əsasını qoyduğu ənənəni davam etdirən Prezident İlham Əliyevin sərəncamları ilə müstəqil dövlətimizdə azad, demokratik medianın inkişafına, jurnalistlərin sosial problemlərinin həllinə dövlət dəstəyini təmin edən təsirli tədbirlər reallaşdırılıb. Bunların nəticəsidir ki, jurnalistika ölkədə ən sürətlə inkişaf edən, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə günü-gündən təkmilləşən fəaliyyət sahələrindən biridir.

***(Konfrans haqqında geniş material qəzetimizin növbəti saylarında təqdim ediləcək.)***

***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 19 aprel.- S.5.